**Qrant qeydiyyatı ilə bağlı qaydalara edilmiş dəyişiklər barədə**
**Azad İqtisadiyyata Yardım İctimai Birliyinin işçi sənədi**

## Xülasə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli qərarı ilə təsdiq edilmiş "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nda 11 yanvar 2017-ci il tarixində Nazirlər Kabinetinin 4 saylı qərarı ilə dəyişikliklər edilib.

Bundan başqa Nazirlər Kabinetinin 2015-ci il 22 oktyabr tarixli 339 nömrəli qərarı ilə təsdiq edilmiş "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nda Nazirlər Kabinetinin 24 yanvar 2017-ci il tarixli 12 saylı qərarı ilə dəyişikliklər edilib.

"Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"na edilən 11 yanvar 2017-ci il tarixli dəyişikliklər əsasən xarici donorlar üçün Azərbaycanda qrant verilməsi hüququnun əldə edilməsi ilə bağlı 24 yanvar 2017-ci il tarixli "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nda edilmiş olan dəyişiklər ilə bağlı olan texniki xarakterdə olub.

24 yanvar 2017-ci il tarixli Nazirlər Kabinetinin "Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nda edilən dəyişiklik əsasən xarici donorlar tərəfindən Azərbaycanda qrant vermək hüququnun əldə edilməsi prosedurunun dəyişdirilməsi məsələlərini əhatə edib. Burada gətirilən dəyişiklik ondan ibarətdir olub ki, xarici donorlar üçün Azərbaycanda qrant vermək hüququnun əldə edilməsi tələbi qüvvədə qalmaqla, həmin prosedurun (qrant vermək hüququnun əldə edilməsi üçün müraciətin) artıq xarici donorlar ilə bərabər yerli QHT-lər tərəfindən də təqdim edilməsi və bütün bu prosesin bir orqan (Ədliyyə Nazirliyində) vasitəsi ilə həyata keçirilməsi müəyyən edilib.

## Yeni dəyişiklərlə həll edilməyən problemlər

1. **Xarici donorlar tərəfindən Azərbaycanda qrant vermək üçün ayrıca icazənin alınması tələbi hələ də qüvvədə qalır.**
   - 24 yanvar 2017-ci il tarixli dəyişikliklərə[1] görə "Qrant vermək hüququnu əldə etməmiş xarici donorlarla qrant müqaviləsi bağlanıla bilməz" müddəası ləğv edilsə də, xarici donorların yerli QHT-lərə qrant vermək üçün hələ də əlavə icazə proseduruna tabe olması qüvvədə qalır[2]. Belə ki, yeni dəyişiklik ilə xarici donorlar tərəfindən yerli QHT-lər ilə qrant müqaviləsini əvvəlcədən icazə olmadan imzalamaq imkanı yaransa da, sonradan qrant müqaviləsinin qeydiyyatı mərhələsində xarici donorun qrant vermək hüququnun olub olmaması müvafiq dövlət orqanının (maliyyə Nazirliyi) qiymətləndirilməsindən asılı vəziyyətə düşür.

---

1 "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"na Nazirlər Kabinetinin 24 yanvar 2017-ci il tarixli 12 saylı qərarı ilə edilən

2 "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi" Qaydası. Maddə 2.2.

2. **Qrant vermək hüququnun aydın olmayan anlayış və ifadələrdən asılı hala salınması: "maliyyə-iqtisadi məqsədəmüvafiqlik" və "maliyyə-iqtisadi əsaslandırılmanın qeyri-dəqiq göstərilməsi"**

- Xarici donorlar tərəfindən Azərbaycanda qrant vermək hüququnun əldə edilməsi üçün hələ də hər bir qrant üzrə dövlət orqanın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair əlahiddə rəyi tələb olunur. Lakin qrant haqqında qanunvericiliyi əhatə edən qanun və digər tənzimləyici aktlarda "maliyyə-iqtisadi məqsədəmüvafiqlik" anlayışı haqqında bəhs edilməyib.

- Nazirlər Kabinetinin 24 yanvar 2017-ci il tarixli dəyişikliyi (3.4-cü maddə) ilə dövlət orqanına xarici donor tərəfindən qrantın verilməsi məqsədi və onun "maliyyə-iqtisadi əsaslandırılması" qeyri-dəqiq göstərilib göstərilməməsini müəyyən etmək üçün (inzibati orqana verilən) diskresion səlahiyyət qüvvədə qalıb. Həmin qaydaya görə qrantın maliyyə-iqtisadi əsaslandırılması "qeyri-dəqiq" göstərilərsə qrant verilməsi üçün tələb olunan "rəy"in verilməsindən imtina edilir.
- Qeyri müəyyən olan "maliyyə-iqtisadi məqsədəmüvafiqlik" anlayışının "dəqiq" və ya "qeyri-dəqiq" qiymətləndirməsini həyata keçirən dövlət orqanlarının hansı amilləri nəzərə alacağının qeyri müəyyən olması dövlət orqanına qeyri-məhdud mülahizə səlahiyyəti verir. Çünki hər bir qrant müqaviləsinin maliyyə-iqtisadi əsaslandırması həm də qeyri-dəqiq ola bilən müxtəlif amilləri və maraqlı tərəflərin gümanlarını əhatə edə bilər. Belə anlayışların qanunvericilikdə və ya hansısa qaydada dəqiq ifadə edilməsi qeyri mümkün olduğunu nəzərə alaraq qrant verilməsi hüququnun belə avtonom anlayışa dəqiq olmayan qiymətləndirici mülahizə verməkdən asılı hala salınması Qanunla müəyyən edilən dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amillərinin təşkil edir.[3]

---

[3] "Normativ hüquqi aktlar" haqqında Konstitusiya Qanunu (2010)
64.1. Normativ hüquqi aktda dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amillərinə aşağıdakılar aiddir:
64.1.1. diskresion səlahiyyətlərin geniş olması;
64.1.2. səlahiyyətin dispozitiv imkan kimi müəyyənləşdirilməsi;
64.1.3. şəxsə məxsus hüquqların həyata keçirilməsi üçün ona lazım olduğundan daha yüksək tələblərin irəli sürülməsi;
64.1.4. fiziki və hüquqi şəxslərin hüquqlarından dövlət orqanı (vəzifəli şəxs) tərəfindən sui-istifadə edilməsi imkanı;
64.2. Vəzifəli şəxsə qərar qəbul edilməsi zamanı öz mülahizələrinə görə hərəkət etmək imkanı verən normativ hüquqi aktdakı diskresion səlahiyyətlər özbaşına həyata keçirilə bilməz.
64.6. Normativ hüquqi aktda lazım olduğundan yüksək və artıq tələblərin irəli sürülməsinə, fiziki və hüquqi şəxslər tərəfindən təqdim edilən sənədlərin, yaxud başlanmış inzibati prosedur çərçivəsində ona imtina üçün əsasların açıq (natamam) siyahısının mövcudluğuna, hüququn həyata keçirilməsinə imtina üçün subyektiv qiymətləndirici ifadələrdən istifadə olunmasına yol verilmir.

3. **Xarici donorlara qrant vermək hüququ verilməsindən imtina səbəbinin açıq qadağaya bərabər olması.**

   - “Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası”nın 3.3-cü maddəsinə görə "qrantın yönəldildiyi sahənin ehtiyaclarının dövlət tərəfindən ödənilməsi qrantın maliyyə-iqtisadi cəhətdən məqsədəmüvafiq hesab olunmaması üçün əsasdır." Belə imperativ norma inzibati orqana hər hansı bir məsələyə dövlət tərəfindən maliyyə və ya hansısa formada dəstəyin göstərilməsi halında xarici donora qrant vermək hüququndan məhrum etməyi tələb edir. Bu normanın problematik tərəfi həm də odur ki, inzibati orqan müvafiq qərar verərkən ağır siyasi təzyiq altında olur və onun qərərzsiz qərar verməsi praktiki olaraq qeyri mümkün olur. Çünki dövlətə qarşı tənqidi mülahizələrdən çəkinmək kimi gözləntisi olan inzibati orqanın qərarverici şəxsləri xaricic donor tərəfindən qrantın yönəldiyi sahənin ehtiyaclarının dövlət tərəfindən qraşılanmaması barədə qənaət (qiymətləndirmə) ortaya qoymaq üçün kifayət qədər müstəqil və dövlətdən asılı olmamalıdır.

4. **Qrant müqavilələrinin leqallaşdırılması və ya onlara apostil verilməsi tələbi**

   - 24 yanvar 2017-ci il tarixli NK-nin “Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası”nda (2.4.) yeni mətndə verilmiş qaydada görə “xarici ölkədə tərtib olunmuş sənədlər leqallaşdırılmalı və ya onlara apostil verilməlidir”. Əvvəlki versiyada xarici donorların təsis sənədləri, həmçinin digər layihə məlumatlarının da leqallaşdırılması tələbi ləğv olunsa da yeni mətndə konkret hansı sənədlərin leqallaşdırılması və ya apostil verilməsindən bəhs edilmir. Hüquqda leqallaşdırma və apostil verilməsi qaydası əsasən başqa ölkədə müvafiq hakimiyyət səlahiyyətləri olan və ya belə səlahiyyətləri icra edən orqanlar tərəfindən tərtib olunan və ya təsdiq olunan rəsmi sənədlərə, doğum haqqında şəhadətnamələrə, etibarnamələrə, qeydiyyat çıxarışlarına və sair şamil olunur. Lakin qrant veirlməsi münasibətlərində əsas iki tərəfli sənəd ya qrant müqaviləsidir, ya da qrantın verilməsi haqqında qərar. Lakin fiziki və ya hüquqi şəxslərin ikitərəfli müqavilələrini tənzimləyən müqavilələrinin dövlət tərəfindən leqallaşdırılması tələbinin zəruriliyi zəruriliyi əsaslı görünmür. Belə tələb tərəflər arasında qarşılıqlı razılaşma ilə müəyən edilə bilər. Çünki dövlət orqanının qrant müqavilələrini qeydə

alması (bildiriş-məlumatlandırma) proseduru həmin sənədlərin və ya münasibətlərin hüquqiliyinə təminat məqsədi yox, bu prosesin Azərbaycan qanunvericiliyinə uyğunluğunun yoxlanılmasını qiymətləndirmək məqsədi ilə aparılır.

5. **Qrant müqavilələrinin qeydiyyat məqsədinin dövlət orqanına məlumat vermək funksiyasını daşımasına baxmayaraq, bu prosesin mürəkkəb və öncədən qadağaedici təsirlərinin olması**
   - 24 yanvar 2017-ci il tarixli dəyişiklik ilə qrant vermək hüququnun əldə edilməsi üçün qrant müüqaviləsinin (qərarının) və qrantın maliyyə-iqtisadi əsaslandırılmasının əsli ilə yanaşı onların elektron surəti də təqdim olunduqda, əlaqələndirici dövlət orqanı həmin sənədlərin surətini Maliyyə Nazirliyinə elektron qaydada göndərilməsi müəyyən olunsa da, ictimai təşkilatlara belə imkan tanınmayıb.
   - Qrant müqavilələri üzrə bank əməliyyatları aparılması üçün Ədliyyə Nazirliyindən bildirişin tələb olunması hələ də qüvvədə qalır. Bundan başqa Qrant müqavilələri üzrə müxtəlif dəyişikliklər, layihənin icrasında gecikmə kimi hallarda da belə belə halların qeydə alınması və yenidən bank əməliyyatları üçün yeni bildirişin alınması tələbi ictimai birliklərin layihələri dəyişə bilən şəraitə uyğunlaşırmaq imkanını çətinləşdirir.

6. **Artıq yeni dəyişikliyə görə Ədliyyə Nazirliyi həm də xarici donorların "Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nda (maddə 1.2) müəyyən edilən donorlara aid olub olmamasını da yoxlayacaq. [4]**
   - Belə ki, "Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nda (maddə 1.2) müəyyən edilən donor siyahısına bu təşkilatlar daxildir:
     - beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri;
     - xarici hökumətlər və onların nümayəndəlikləri;
     - xeyriyyəçilik, humanitar inkişaf və başqa ictimai yönlü beynəlxalq təşkilatlar;
     - maliyyə-kredit institutları;

[4] "2.5. Bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş sənədlər daxil olduğu vaxtdan növbəti iş günündən gec olmayaraq, əlaqələndirici dövlət orqanı onların tamlığını, donorun bu Qaydanın 1.2-ci bəndində göstərilmiş xarici donorlara aid olub-olmadığını müəyyən edir və qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin əldə edilməsi üçün qrant müqaviləsini (qərarını) və qrantın maliyyə-iqtisadi əsaslandırılmasını sifarişli poçt göndərişi vasitəsilə Maliyyə Nazirliyinə göndərir. Sənədlər tam təqdim olunmadıqda, müraciət etmiş şəxsə geri qaytarılır və çatışmazlıqların aradan qaldırılması üçün əlavə olaraq 10 gün müddət təyin edilir.

    - təhsil, elm, səhiyyə, incəsənət və idmanın inkişafı sahələrində fəaliyyət göstərən xarici ictimai təşkilatlar, o cümlədən fondlar, assosiasiyalar, federasiyalar və komitələr;
    - həmçinin xarici hüquqi şəxslərin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış filial və nümayəndəlikləri ("Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri)
- Lakin siyahıda bir çox geniş sahələr öz əksini tapsa da bu insan hüquqları, demokratiya və sair sahələrdə fəaliyyət göstərən xarici QHT-lər (beynəlxalq olmayan) nəzərdə tutulmur.